**UOT 82**

# SABİR ƏHMƏDLİ RƏQƏMSAL TƏSVİRLƏR USTADI KİMİ

**Sevda VƏLİYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 15 fevral 2025; çapa qəbul edilmişdir: 22 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.
Received: 15th of February, 2025; accepted: 22th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *zaman, realizm, Qarabağ, Axirət sevdası, Kef, Ömür urası*

## Giriş

Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən biri olan Sabir Əhmədli (1930-2009) ən məhsuldar yazıçılarımızdandır. O, təqribən 60 illik yaradıcılıq dövründə iyirmiyə yaxın roman və bir sıra hekayələr qələmə almışdır. Onun yaradıcılığını zaman, dövr baxımından iki qismə ayırmaq olar: sovet dövrü yaradıcılığı və müstəqillik dövrü əsərləri. Doğrudur, bu bölgü nə qədər şərti olsa da, hər halda müəyyən səbəblərə əsaslanır. Belə ki, bu bölgünün əsas səbəbi onun əsasında duran zaman, dövr və mühitdir. Sabir Əhmədlinin qələmə aldığı, təsvir etdiyi birinci dövrlə ikinci dövr arasında zəmin-asiman qədər fərq var. Çünki Sabir Əhmədlinin əsərlərində təsvir etdiyi birinci dövr Azərbaycanın Sovet İttifaqı tərkibində olduğu illərin – həyatın bütün sahələrinin təsviridirsə, ikinci dövr yaradıcılığı müstəqillik dövrünün inikasıdır. Doğrudur, Sabir Əhmədlinin əsərlərində təsvir olunan məkan dəyişməzdir. Onun istər kənd həyatından, istərsə də şəhər həyatından bəhs edən romanlarının əsas mühiti Azərbaycan olsa da, hər halda bu əsərlərdə iki mühit, iki ictimai-iqtisadi formasiya üz-üzə qoyulur. Azərbaycanın problemləri əslində bu iki ictimai-iqtisadi formasiyanın fonunda açılır: birincisi sosializm həyat tərzi ilə, ikincisi isə müstəqillik və bazar iqtisadiyyatı fonunda. Problemin mahiyyəti ondan ibarətdir ki, hər iki dövrün əsas məkanı Azərbaycan olmaqla yanaşı, eyni zamanda, hər iki dövrün əsas qəhrəmanları da Azərbaycan xalqının övladlarıdır. Doğrudur, bu dövrləri müxtəlif yönlərdən müqayisə edib, hansının hansından nə dərəcədə, hansı keyfiyyətlə və kəmiyyətlərlə üstün olduqları haqqında fəlsəfi, iqtisadi, mənəvi baxımdan müqayisələr etmək olar. Lakin Sabir Əhmədli bu müqayisələrə getmədən hər iki dövrün çılpaq realist təsvirlərini verməklə Azərbaycan insanının bu zamanlar və məkanlar içində, mənəvi-psixoloji durumdan hansı şəraitlərdə, mühitlərdə həyat sınaqlarından keçdiklərini göstərir. Və nəticədə əslində belə bir qərara gəlir: hansı dövr olur-olsun, hansı ictimai-iqtisadi-siyasi formasiya olur-olsun, nəticədə əzab çəkən, əziyyət çəkən Azərbaycan xalqı və onun övladlarıdır. Doğrudur, Sabir Əhmədlinin bir yazıçı kimi Azərbaycan xalqının, Azərbaycan cəmiyyətinin yaxşı tərəflərini görmədiyini də söyləmək olmaz. Təbii ki, bu, yazıçının əsərlərinə doğru, düzgün, obyektiv qiymət

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* valiyevasevda1984@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.264**

verərkən ədalətsizlik olardı. Bununla belə, vacib olan da budur ki, Sabir Əhmədli bir yazıçı kimi əlinə ilk qələm aldığı günlərdən sonuncu əsərinə qədər xalqın həmişə mübariz ruhunu, onun cəmiyyəti saf-çürük etmək bacarığını, xalqın ictimai şüurunu, onun ağı-qaradan seçmək bacarığını həmişə yüksək qiymətləndirmiş və əsərlərini daima bu ampluada, bu nöqteyi-nəzərdən qələmə almağa çalışmışdır. Belə ki, bu istiqamət özünü hələ onun *"Toğana", "Yamacda nişanə", "Dünyanın arşını", "Qanköçürmə stansiyası"* sovet dövründə qələmə alınmış və s. romanlarından tutmuş, axırıncı əsərlərindən olan *"Axirət sevdası", "Kef", "Ömür urası", "Kütlə"* romanlarına qədər davam etmişdir (bax: 5; 6). Bu mənada, əgər sovet dövründə qələmə aldığı adını çəkdiyimiz romanlarda Azərbaycan insanı sovet sosialist ictimai-siyasi quruluşu fonunda təsvir edilirsə, ikinci dövrdə qələmə aldığı romanlar təbii ki, müstəqillik ab-havası yönündən təhlildən keçirilir. Və bununla da Sabir Əhmədli istər sovet dövründə, istərsə də müstəqillik dövründə qələmə aldığı Azərbaycan insanını olduğu kimi gələcəkdə yaşamağa dəvət edir.

### 1. Realist yazarın yaradıcılıq yolunun başlanğıcı

Xalq yazıçısı Sabir Əhmədli Azərbaycan nəsrinin "altmışıncılar" deyilən nümayəndələrinə mənsubdur. Təbii ki, məlum olduğu kimi, "altmışıncılar" deyəndə bu nəsil XX əsrin altmışıncı illərində baş verən SSRİ Kommunist Partiyasının baş katibi N.S.Xruşşovun cəmiyyəti yumşaltma, bir qədər demokratikləşdirmə dövrü ilə bağlıdır. Məlumdur ki, təqribən 30 ildən artıq bir müddət ərzində SSRİ-də hökm sürən Stalin hakimiyyətindən, onun törətdiyi cinayətlərdən sonra cəmiyyətin bir qədər demokratikləşməsi bütün SSRİ xalqlarının maddi və mənəvi həyatlarına təsir etdiyi kimi, təbii ki, ədəbiyyata, incəsənətə, mədəniyyətə də təsirsiz qalmırdı. Bu mənada, bütün SSRİ xalqları ədəbiyyatında gedən demokratikləşmə, milliləşmə prosesi Azərbaycan ədəbiyyatından da yan ötmür, artıq bu ədəbiyyatda da realist həyatı dərindən əks etdirən, həyatın məğzini, mahiyyətini sovet cəmiyyətinin müxtəlif rakurslarının, bucaqlarının təsvirini verən əsərlər meydana çıxırdı. *"Azərbaycan ədəbiyyatının 1960-cı illərində irəli gələn yeni dalğası öz bədiilik meyarlarına mühafizəkarlığı ilə diqqət çəkir. Bu, həm də cəmiyyət miqyasında olan yumşalmanın nəticəsi idi. Qəribə bir paradoksallıq da məhz, bu zamandan başlayır. Rejimin sərtliyi nisbətən yumşalmağa doğru getdikcə, ədəbiyyatın içindəki ağrı simvolikası, ruhun təklik, tənhalıq çalarları daha çox üzə çıxır"* (1, s. 45-46). Bu ədəbiyyat artıq bu vaxta qədər yaranan sovet ədəbiyyatından müəyyən mənada fərqlənir, istər şəhər ədəbiyyatının, istər kənd ədəbiyyatının və istərsə də bütövlükdə sovet insanının mənəvi-psixoloji durumunda baş verən təbəddülatlar, dəyişikliklər ədəbiyyatda öz əksini tapırdı. Doğrudur, bir qədər sonra, təqribən 70-ci illərin əvvəllərində bu prosesin qarşısını müəyyən qərar və qətnamələrlə bir qədər almağa çalışsalar da, lakin artıq prosesə təkan verilmişdi. Artıq bu prosesin qarşısını almaq qeyri-mümkün idi. İstər yaşlı yazıçılar və istərsə də Anar, Əkrəm Əylisli, Elçin, Maqsud İbrahimbəyov və onlarla başqaları bu prosesin, bu ədəbi təmayülün inkişafında mühüm rol oynayır və beləliklə, 60-cı illər "altmışıncılar" nəslinin yaranmasında və inkişafında mühüm əhəmiyyətə malik idi. Belə yazıçılardan biri və birincisi 50-ci illərin əvvəllərindən ədəbi prosesə qoşulan Sabir Əhmədli idi. Sabir Əhmədli elə ilk əsərlərindən, hekayələrindən cəmiyyətin bütün tərəflərini əks etdirməyə çalışır və sadəcə əks etdirmir, onun bütün ziqzaqlarını, gözlə görünməyən, lakin hər bir vətəndaşın içində duyduğu hissləri, cəmiyyət və vətəndaş qarşıdurmasını öz yaradıcılığında əks etdirməyə çalışırdı. Təsadüfi deyil ki, Sabir Əhmədlinin 1989-cu ildə iki cilddə çap olunmuş "Seçilmiş əsərləri"nin birinci cildinə Ön söz yazan görkəmli tənqidçi Qulu Xəlilov deyirdi:

*"O, (Sabir Əhmədli– S.V.) ədəbiyyat dünyasına "Arabaçı" (1953) hekayəsilə gəlmişdir. Bu hekayədəki dil aydınlığı, şirinlik, həyatı incə müşahidə, milli ruh, torpağa, kökə, insanlara bağlılıq, təbiilik onun bundan sonra yazdığı bütün əsərlərində getdikcə dərinləşdi, şaxələndi, poetikləşdi, bir çox canlı insan surətlərinin simasında bir nəhrə döndü, ənənəyə çevrildi... Maraqlıdır ki, yeni-yeni uçuş və sürət vasitələri meydana çıxsa da, Sabir Əhmədli öz sənət arabasından düşmədi, onu heç nəyə dəyişmədi. Araba sözün geniş mənasında milli kökə, torpağa, xalqa, onun mənəvi dünyasına bağlılıq rəmzi kimi yadda qaldı, daim təkmilləşdi. S.Əhmədli stalinizmin qalıqlarının hələ davam etdiyi 50-ci illərdə də, Brejnev, onun tayfa və dəstəsinin – yalanın, rüşvətin, saxtakarlığın tüğyan etdiyi sonrakı illərdə də sənət arabasından düşmədi, xalqın mənəvi dünyasından uzaqlaşmadı"* (7, s. 3-4).

Sabir Əhmədli zamanın yazıçısıdır. Onun əsərlərinin ən ümdə cəhəti odur ki, o, yaşadığı zamanın, dövrün dəqiq təsvirlərini verə bilir: istər ictimai-məişət zəminində, istərsə də mənəvi-psixoloji durum baxımından. Təbii ki, bu məfhumlar əslində bir-birindən ayrı, bir-birindən təcrid olunmuş anlayışlar deyil. Xüsusilə, Sabir Əhmədli bu anlayışları bir-birinə qovuşdura bilən, onların birinin digərindən doğduğunu, daha doğrusu, mənəvi-psixoloji durumun ictimai-siyasi zəmini formalaşdırdığını göstərən yazıçıdır. Belə ki, əgər Sabir Əhmədlinin sovet dövründə yazdığı roman, hekayə və povestlərində hansısa bir obrazın mənəvi-psixoloji durumu sovet etalonlarına, çərçivələrinə uyğun gəlmirsə, yazıçının təsvirlərinə görə bu, yalnız və yalnız cəmiyyətin ictimai-siyasi-məişət zəmininin törətdiyi fəsadlardır. Bu mənada, Sabir Əhmədli tərəfindən sovet insanının fəsadlarını törədən cəmiyyətin təsviri o qədər dəqiq və realdır ki, bu reallığı heç bir foto, digər sənət əsəri məhz bu şəkildə əks etdirməyə qadir deyildir. Bu, məhz Sabir Əhmədli realizminin gücüdür ki, cəmiyyətin acı reallıqlarının təsviri oxucunu insanların mənəvi-psixoloji durumlarının reallığına da inandırmış olur. Əsas məsələ isə odur ki, Sabir Əhmədlinin romanlarında təsvir olunan cəmiyyət və insan məhz romanda, povestdə, hekayədə təsvir olunan zamanın, dövrün konkret tarixin hadisələri kimi qavranılır, heç bir mücərrəd, qeyri-real tarixə söykənmir.

### 2. Sabir Əhmədlinin sovet dövrü əsərlərində cəmiyyətin problemləri

Bu mənada, Sabir Əhmədlinin əsərlərini Azərbaycan tarixinin rəqəmsal təsvirlərini verən əsərlər və zəmanənin güzgüsü də adlandırmaq olar. Həqiqətən də, zaman ötəcək, bu dövrün, zamanın üzərindən qərinələr, əsrlər keçəcək, beş yüz ildən, min ildən sonra kimsə bizim dövrün, mühitin, zamanın reallıqlarını öyrənmək istəyəcəksə, daha mətbu orqanlarına, xronikalara müraciət etməyəcək. Çünki bu mətbu orqanları da, xronikalar da dövrün, zamanın təsvirini verməkdə acizdir. Onlar yalnız beş-altı cümlə ilə informasiya verə bilərlər. Sabir Əhmədli isə öz təsvirlərində cəmiyyətin müəyyən zaman kəsiyində elə ümumiləşmiş obrazını yaradır ki, biz bu obrazı, bu təsviri başqa sənət növlərində görə bilmirik. *"Zaman-əbədi davam edən keçmiş deməkdir" - fələyin çarxına, ruzigarın gərdişinə verilən ən doğru tərif məncə, budur. Lakin hər cür keçmiş yox, yalnız tarixə və yaddaşa çevrilən, özünü sənətdə dərk edən keçmiş özündən sonra da yaşayır, abidələşir və əbədiyyətə qovuşur"* (8, s. 12). Məhz bədii sənət əsərinin və onu qələmə alan sənətkarın da böyüklüyü, qüdrəti bundadır. Sabir Əhmədlinin əsərlərinə gəldikdə isə, onun əsərlərində təsvir olunan zaman, cəmiyyət, insan, onların problemləri gələcək nəsillərə nə qədər donmuş, yalnız kiçik bir epoxanın, dövrün informasiyası kimi ötürülsə də, əslində bu informasiya, bu təsvir o qədər dinamikdir ki, cəmiyyətin, insanın, zamanın bütün əlvanlığı, bütün dəyərləri zamanın bu kəsiyindən gələ-

cəyə boylanacaq və bizim dövrümüz haqqında ən dəqiq, ən çılpaq və ən əsası isə ən həqiqi, heç bir yalana, illüziyaya bürünməyən informasiyanı gələcəyə ötürəcəkdir. Məhz budur Sabir Əhmədli qələminin qüdrəti. Belə ki, Sabir Əhmədli əgər 60-70-ci illərdə qələmə aldığı *"Toğana"*, *"Yaşıl teatr"*, *"Yasamal gölündə qayıqlar üzürdü"*, *"Qankö-çürmə stansiyası"* və başqa romanlarında kənd həyatını, şəhər həyatını, kolxoz həyatını, ziyalıların mənəvi-psixoloji durumlarını qələmə alırsa, bu əsərlərin heç birində şişirt-məyə, illüziyaya yol vermir. Qəhrəmanlarını cəmiyyətdə real problemlərlə, həyatdan doğan, daha doğrusu, cəmiyyətin doğurduğu maddi-mənəvi problemlərlə üz-üzə qoyur və beləliklə, cəmiyyətin dərin qatlarına, qəhrəmanlarının mənəvi-psixoloji durumlarına nüfuz edərək, onların problemlərini araşdırır. Və ən əsası odur ki, bu mənada Sabir Əh-mədli dövrünü və qəhrəmanlarını heç bir dövrlə və qəhrəmanları ilə dəyişik salmaq olmaz. Çünki, bu qəhrəmanların və təsvir olunan bu dövrün üzərində elə Sabir Əhmədli tərəfindən vurulmuş zamanın möhürü vardır. Onun hər bir qəhrəmanı öz zamanının oğlu, öz dövrünün əks-sədaçısıdır. Əslində Sabir Əhmədli yaradıcılıq yolu təqribən 50-60 ildən artıq bir dövrü əhatə etmir. Amma maraqlıdır ki, onun qəhrəmanlarının dövr-ünü və hər bir əsərində təsvir olunan zamanı bəlkə də illərə də bölmək mümkündür. Yə-ni onun əsərlərində təsvir olunan bir zamanı başqa əsərində təsvir olunan zamanla heç vəchlə qarışdırmaq olmaz. Çünki Sabir Əhmədli hər bir əsərində qələmə aldığı insan və zaman problemini o dövrün ictimai-siyasi, mənəvi-psixoloji durumuyla o qədər rənga-rəng etmişdir ki, o dövr, məhz həmin dövrün insanının xarakterik xüsusiyyətləri əsər-lərdən aşkarca görünür.

### 3. Müstəqillik dövrü və yeni reallıqlar

Sabir Əhmədli müstəqillik dövrü Azərbaycan ədəbiyyatında uğurlu ədəbi simalardan biri kimi xarakterizə edilə bilər. O təqribən yaradıcılığının qırx illik bir dövrünü sovet cəmiyyətində qələmə alsa da, təqribən iyirmi ilini də müstəqillik dövrünə sərf etdi. Müstəqillik dövrü isə artıq başqa bir dövrdür. Onun istər ictimai-siyasi məz-munu, istər məişət zəmini və istərsə də müstəqillik dövrünün insanının cizgiləri sovet dövrü insanından, cəmiyyətindən, məişətindən əsaslı surətdə fərqlənir. İlk baxışda adi insan bəlkə də bunları duymur, çünki xalq həmin xalq, milli dəyərlər də əsasən təqribən həmin dəyərlərdir. Lakin əslində istər cəmiyyət, istərsə də Azərbaycan insanı özü də hiss etmədən köklü şəkildə dəyişmiş, istər zaman, istər şəxsiyyət baxımından sovet in-sanından fərqlənmişdir. Sabir Əhmədli isə bir yazıçı kimi bu prosesi duymuş, müşahidə etmiş və ömrünün son illərində, müstəqillik dövründə qələmə aldığı *"Axirət sevdası"*, *"Kef"*, *"Ömür urası"*, *"Kütlə"* və başqa əsərlərində bu prosesi olduqca real şəkildə, bü-tün çılpaqlığı ilə qələmə almışdır. Ümumiyyətlə, Sabir Əhmədli yaradıcılığına xas olan dərin realizmin həyatın ən dərin qatlarına qədər təsviri bu əsərlərə də xasdır. Bu əsərləri oxuduqca oxucu müstəqillik dövrü illərində ermənilər tərəfindən Azərbaycan xalqının başına gətirilən müsibətlərlə yanaşı, eyni zamanda, müasir cəmiyyətin, müasir Azərbay-can cəmiyyətinin fəsadlarını, erməni işğalının gətirdiyi fəsadları da görür və məhz bu ictimai-siyasi məişət zəminində Azərbaycan insanının da nə şəkildə təbəddülata uğradı-ğının şahidi olur. Ən əsası isə odur ki, Sabir Əhmədli bütün bu acı reallıqları öz realist qələmi ilə qələmə alsa da, bütövlükdə nə Azərbaycan xalqı haqqında, nə Azərbaycan dövlətçiliyi barəsində və nə də haçansa erməni işğalına son qoyulub torpaqlarımızın azad olacağı gün haqqında bədgüman olmur. Onun qəti inamına görə, Azərbaycan tor-paqları, Vətənimiz Qarabağ erməni işğalından mütləq azad olacaq, xalqımız, qarabağ-lılar yenidən öz doğma yurd-yuvalarına qayıdaraq Qarabağı yenidən bərpa edəcək, bu

Vətənin, bu torpağın hər qarışına sahiblənəcəklər. *"Yazıçının son əsərlərinə xas cəhət - onların avtobioqrafik xarakter daşımasıdır və müəllifin Kişi adıyla yaratdığı obraz - yazıçının özü - hər üç romanın baş qəhrəmanıdır. Məlum olduğu kimi, Sabir Əhmədlinin oğlu Məhəmməd könüllü olaraq cəbhəyə getmiş, Qarabağ uğrunda vuruşlarda döyüşmüş və Murovda şəhid olmuşdur. Müəllifin – yazıçının – Kişinin oğlunun sorağıyla qarlı Murov dağına getməsi, onu dirilər, yaralılar arasında axtarması, tapmadan Bakıya dönməsi və mənzilində ciyərparasının ehsanına rast gəlməsi - romanın ən təsirli səhnələridir, bu parçaları həyəcansız, ağrısız oxumaq mümkün deyil"* (4, s. 2). Qeyd edək ki, yazıçının *"Ömür urası"* romanı da məhz bu amalla qələmə alınan romandır. Romanda Qarabağın ermənilərin işğalına məruz qaldığı və yeddi ildən sonra azad olduğu vaxt Qarabağa, doğma Cəbrayıla qayıdan ilk Azərbaycan vətəndaşlarından biri də romanın qəhrəmanı, bəlkə də elə romanın müəllifi məhz Sabir Əhmədlinin özüdür. Bu qayıdış nə qədər xəyali olsa da, bu günkü gündən baxdıqda, onun reallaşdığını gördükdə Sabir Əhmədlinin bir realist yazıçı kimi nə qədər uzaqgörən bir yazıçı olduğunu duymaya bilmirsən. Yazıçının böyüklüyü ondadır ki, o hələ keçən əsrin sonlarında erməni-Azərbaycan müharibəsinin ən qızğın çağlarında Qarabağın azad olunacağına qəti şəkildə inanmış, bu müqəddəs hissdən, amaldan heç vaxt, bir an da olsun ayrı düşməmişdir. Məhz xalqın ruhunu, Azərbaycan dövlətçiliyinin əzəmətini, onun Qarabağı mütləq azad edəcəyinə mütləq şəkildə inamın nəticəsi idi ki, müəllif *"Ömür urası"* romanında bu prosesi ən xırda cizgilərinə qədər təsvir edir, xəyalən Qarabağın, Cəbrayılın gələcəyini, ermənilər gözəl torpaqları nə qədər xarabazara çevirsələr də, işıqlı, aydın, firavan görürdü.

Sabir Əhmədli zamanı qabaqlayan, zamanın fövqündə duran yazıçıdır. Onun romanlarında zaman o qədər axıcı, o qədər dinamik məfhumdur ki, Sabir Əhmədli zamandan zamana keçərkən heç bir çətinliklə üzləşmir. O, gələcəyin özündə belə gələcəyə və yaxud da keçmişə getməyi asanlıqla təsvir edir. *"Fiziki anlamda insanın zamanda sərbəst hərəkəti mümkünsüzdür. Lakin fikrən keçmişə dönmək, gələcəyə səyahət etmək, özünü bir anlıq indidən təcrid edərək, daha əvvəli və ya daha sonranı mənən yaşamaq qabiliyyətindən insan övladını məhrum etmək mümkün deyil"* (9, s. 10). Maraqlıdır ki, onun qələmə aldığı təsvirlərdə bəzən bir abzas keçmişdən danışırsa, bir abzas mütləq gələcəyi təsvir edir. Ən əsası isə odur ki, bu təsvirlərin içində insan şəxsiyyəti, insan psixologiyası, insan mənəviyyatı, cəmiyyətin bütün problemləri durur. Məsələn, elə *"Ömür urası"* romanında olduğu kimi. Belə ki, bu romanda müəllif, əsərin qəhrəmanı hələ xəyalən Qarabağa, doğma Cəbrayıla getsə də, həmin yerlərdə müəllifin xəyalı bir zamanla məhdudlaşmır. Belə ki, o, yeddi ildən sonra qayıtdığı doğma yurd-yuvasında hər ağacın, hər kolun, hər evin, hər cığırın tarixini yada salır. Getdiyi yurd-yuvanın keçmişinə bir ekskurs etməklə bərabər, eyni zamanda, bu yurd-yuvanın, torpağın gələcəyini də aydın şəkildə görür. Budur, Sabir Əhmədli romanlarının əsas qayəsi. Ən əsası odur ki, Sabir Əhmədli bir yazıçı kimi öz realizmi ilə və müxtəlif zamanlara ekskursları ilə bizi xoşbəxt gələcəyə, Qarabağın inkişafına mütləq şəkildə inandırır. Bu isə yenə də qeyd etmək istəyirik ki, məhz realizmin gücü ilə baş verir. Bəlkə də əsərdə təsvir olunan tarixi zaman haqqında bu qədər güclü realizm olmasa, biz Qarabağın gələcəyinə də bir o qədər inanmaz, bu xoşbəxt gələcəyi bəlkə də bir qədər illüziya, mif kimi qəbul edə bilərdik. Doğrudur, bu gün, həqiqətən də, müasir Qarabağda bizim bəlkə də 20-30 il bundan əvvəl mif kimi, illüziya kimi qəbul etdiyimiz möcüzələr gözümüzün qabağında baş verir. Lakin keçən əsrin sonlarında Sabir Əhmədlinin təqribən on il, on beş il sonrakı hadisələri dəqiqliklə, ustalıqla qələmə alması bizə onun keçmişi də bu qədər dəqiq-

liklə qələmə alması barədə əsaslı zəmin verir. Ona görə də bizə elə gəlir ki, Sabir Əhmədlinin romanları ən azından Qarabağ həqiqətlərini də gələcəyə çatdıran qiymətli sənət əsərləridir.

Məlumdur ki, hər bir cəmiyyətin əsas fiquru, əsas obyekti insandır. Cəmiyyətsiz insan olmadığı kimi, insanın da məskəni cəmiyyətdir. Bu mənada, Sabir Əhmədlinin romanlarında insan, Azərbaycan insanı, Qarabağ insanı ən xırda cizgilərinə qədər, psixoloji portretinə qədər təsvir olunub. Erməni işğalının törətdiyi fəsadlar təbii ki, bu insanların da mənəviyyatına, psixologiyasına, şəxsiyyətlərinə təsirsiz ötüşməyib. *"İqtisadi inkişaf tempi yüksəldikcə, texniki nailiyyətlər artdıqca insanlar da sanki robotlaşır, mənəvi dəyərlər maddi-texniki dəyərlərə uduzur. Sabir Əhmədlinin məkan dairəsindən asılı olmayaraq, bütün əsərlərində harasa tələsən, kökü ilə bağları qopmaqda olan, duyğuları öləziyən və qəddarlaşan insan kütləsinə qarşı bir üsyan var. Sabir Əhmədli sanki yeni nəslin üzünə hopan laqeydlik ifadəsini söküb atmağa çalışır, milli kimliyindən uzaq düşməkdə olan fərdin konfliktini verirdi"* (3, s. 5). Doğrudur, bəzən insan bu təzyiqlər altında bir qədər, müəyyən mənada deformasiyaya uğrasa da, Sabir Əhmədli realizmi Azərbaycan insanının mənəvi keyfiyyətlərini, ülviliyini, təmizliyini qələmə almağı bacaran sənətkardır. O, bir sənətkar kimi bütövlükdə insan şəxsiyyətini, onun potensialını, mənfi və müsbət sərhədlərini hamıdan dəqiq bilsə də, bütövlükdə Azərbaycan insanına, istər dövlət xadimi olsun, istər ən adi vətəndaşa ləyaqətlə yanaşır, onun ülviliyini qoruyur və məhz realist qələmi ilə bu mövqedə də şəxsi təəssübkeşlik hisslərini bir kənara qoyub, Azərbaycan insanının bütün keyfiyyətlərini ən sərt realizmi ilə qələmə alır. Ən maraqlısı isə odur ki, Sabir Əhmədli dediyimiz kimi, cəmiyyətin bütün təbəqələrini əks etdirən insanların portretini yaradır. Onun əsərlərində ilahiyyat müəllimi də var, həkim də, nəşriyyat direktoru da, dövlət xadimləri də. Amma onun əsərlərinin ən əsas və birinci qəhrəmanı müəllifin özüdür. Təbii ki, məsələni bu şəkildə qoymaq və qiymətləndirmək bəlkə də düzgün olmazdı. Amma "Axirət sevdası", Kef" və başqa bu əsərlərində də müəllif özü öz qəhrəmanlarına qarşı tərəf-müqabil kimi fəaliyyət göstərir, qarşı tərəfin psixoloji durumunun açılmasında əsas rol oynayır, onların portretlərinin cızılmasına bir növ təkanverici qüvvə olur. Məsələn, elə "Axirət sevdası" romanında müəllifi axirətin düşündürdüyü məqam zaman baxımından nə qədər maraqlı olsa da, müstəqilliyimizin ilk dövrlərində dini azadlığın insanlara verdiyi demokratik düşüncə tərzi də romandan bir xətt kimi keçir. Əgər yetmiş illik sovet dövründə dini düşüncə haradasa bir qədər qapalı şəkildə, məhdud formada, müxtəlif tərəddüdlərlə müşayiət olunurdusa, artıq müstəqillik dövründə demokratiyanın verdiyi imkanlar çərçivəsində cəmiyyətin müxtəlif qatlarına mənsub olan insanlar çəkinmədən, dərin, hətta alimlərin, ilahiyyatçıların özlərinin belə bəzən baş çıxara bilmədikləri, çaşıb qaldıqları mövzulara qorxmadan girişir, onları aydınlaşdırmağa, təhlil etməyə çalışırlar. Bu mənada, *"Axirət sevdası"* romanında axirəti düşünən kişi ilə axirəti izah etməyə çalışan müəllim arasında dialoqlar, diskussiyalar, təhlillər olduqca maraqlıdır. Axirəti düşünmək ümumiyyətlə, nə qədər ağır, həzin bir hiss olsa da, müəllif hər halda bu zamana enmək istəyir, onun mahiyyəti, ən əsası isə zamanı haqqında bilgilər alıb, onu öz təfəkküründən keçirib oxuculara çatdırmaq istəyir. Həqiqətən də, çətin məqamdır. Axirət haqqında onsuz da biliklərin az olması, bəzən müəllimlə əsərin qəhrəmanı arasında anlaşılmazlıqların baş verməsinə də səbəb olur. Lakin bütövlükdə problemin qoyuluşu, müəllifin axirəti dərk etmək istəyi romanın əsas aparıcı xəttinə çevrilərək, onun məzmununu, mahiyyətini şərtləndirir. *""Axirət sevdası" romanındakı əsas surət yazıçının oğlu Məhəmməd olsa da o, romana təhkiyəçinin xatirələri, düşüncələri, yaddaş qəlpələri əs-*

*nasında adlayır. Təhkiyəçi isə yazıçının özüdür. Oxucu yazıçının seçdiyi belə bir bədii üsul vasitəsilə müharibə və onun acı reallıqları, oğlu Məhəmmədin ön cəbhəyə könüllü qoşulması, az sonra şəhid olma faktı ilə tanış olur"* (2, s. 4). Və bütün roman şərtləri ilə bərabər qələmə alındığı dövrün, zamanın əsas probleminə çevrilən axirət məsələsi bəlkə də müstəqillik dövrü ədəbiyyatımızda qoyulan ən uğurlu və cəmiyyətin mənəvi tələbatını ödəməyə yönələn əsas ideyalardan biridir. Çünki təqribən 20-30 min şəhid verdiyimiz Qarabağ müharibəsi bu mövzunu aktuallaşdırır və cəmiyyətimizin əsas suallarından birinə çevrilirdi. Bu mənada, ilahiyyat elmimizin izah etməkdə çətinlik çəkdiyi bir məsələni Sabir Əhmədli bir yazıçı kimi dərindən duyur, cəmiyyət üçün lazımlı olduğunu bilib, onu bədii şəkildə həll etməyə çalışırdı.

**Nəticə**

Sonda bu nəticəyə gəlirik ki, "Kef" romanı da haradasa zaman baxımından *"Axirət sevdası"* ilə səsləşir. Belə ki, "Axirət sevdası"nda olduğu kimi, əgər qəhrəmanı gələcək düşündürürsə, "Kef" romanında da qəhrəmanı gələcək narahat edir. Başqa sözlə desək, axirət əsərin qəhrəmanına nə qədər müəmmalı, mücərrəd görünürsə, eləcə də "Kef" romanında da gələcək müəllifə aydın olmayan şəkildə əyaniləşir. Amma bütün bunlara baxmayaraq, istər "Axirət sevdası" romanında, istərsə də "Kef" romanında bu iki romanı birləşdirən mühüm bir məqam var: gələcəyə sonsuz ümid. Bu mənada kef haradasa müəllifin qarşısına axirət sevdası kimi çıxır. Əsas mənzərə isə hər iki hadisənin gələcəkdə baş verəcəyidir. Gələcək, bizcə, Sabir Əhmədli romanlarının əsas zamanıdır. Doğrudur, Sabir Əhmədli və onun qəhrəmanları bir insan kimi nə qədər tarixə, keçmişə, dünənə bağlı olsalar da və ən əsası keçmişin üzərində formalaşsalar da, daima gələcəyə üz tutmuş, həmişə gələcəyə baxmışlar. Lakin bu o demək deyildir ki, Sabir Əhmədli əsərlərində zaman olaraq müasir zaman öz əksini tapmır. Bizcə, müasir zaman Sabir Əhmədli romanlarının əsas qəhrəmanıdır. Bütün keçmiş və bütün gələcək məhz bu məhək daşından, müasir zamanın prizmasından saf-çürük edilərək öz qiymətini alır. Müasir zamanın təsviri isə Sabir Əhmədli romanlarında olduqca effektivdir. Belə ki, biz bu mövqeyi onun əksər romanlarında – "Axirət sevdası", "Kef", "Ömür urası", "Kütlə" və başqa əsərlərində açıq-aydın görürük.

**ƏDƏBİYYAT**

1. Akimova E. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: YYSİB (Q), 2018, 374 s.
2. Akimova E. Ömrün urasında yaşanan və yazılanlar // Ədəbiyyat qəzeti, 2020, 11 iyul, s. 4-5.
3. Akimova E. Sabir Əhmədli – iki epoxanın yazarı // Ədəbiyyat qəzeti. 2020, 4 iyul, s. 4-6.
4. Anar. Ağrılı ömür. Sabir Əhmədli-90 // Ədəbiyyat qəzeti. 2021, 11 iyul, s. 2-3.
5. Əhmədli S. Kütlə. Bakı: Azərnəşr: 1999, 276 s.
6. Əhmədli S. Axirət sevdası. Bakı: Ozan, 2003, 311 s.
7. Xəlilov Q. Zirvəyə qalxan araba (ön söz) // Sabir Əhmədli, Seçilmiş əsərləri, İki cilddə, I c., Bakı: Azərnəşr, 1989, 232 s.
8. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1995, 172 s.
9. Yaqubova M. Müstəqillik dövrü Azərbaycan nəsrində retrospeksiya. Fəlsəfə doktorluğu dərəcəsi almaq üçün təq. dis., AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı, 2011, 156 s.

***Резюме***

***Севда Валиева***

***Сабир Ахмедли: Мастер по цыфровому описанию***

В статье рассматривается творчество народного писателя Сабира Ахмедли. Показано, что, это творчество можно условно разделить на два периода. Советский период и период независимости.Сабир Ахмедли, прошедший в целом почти 60-летний творческий период, в целом, сорок лет своей деятельности провел примерно в советское время, а двадцать лет в период независимости. В советское время в своем творчестве он больше был известен произведениями к “Тогана”,“Аршин мира”, “Станция переливания крови”, “Знак на склоне”. Во время его правления были написаны “Загробная любовь”, “Удаволства”, “Жатва жизни”, “Толпа” и др.написание романы. В статье показано, что во все периоды творчества Сабира Ахмедли его главными героями были время,окружающая среда, пространство, человек были его главными героями, и он, как писатель объединив эти четыре пространства, сформулировал суть своих работ, суть художественного слова, которое он назвал он пытался открыть. Однако, наряду со всеми этими элементами, он в основном пытался раскрыть внутреннее, психологическое, духовное состояние Азербайджанского человека и оставщееся общества, природы, времени и пространства зависщее только и только от личносты, он пытался использовать его в открытии своего мира.

Время действительно занимает центральное место в романах Сабира Ахмедли. Писатель под понятием времени иногда может прейти в прошлое, иногда в будущее, а иногда даже в загробную жизнь. Поэтому в романах Сабира Ахмедли, возможно, нет временного предела. В его творчестве время безмерно, как и понятие реальности. Правда, в его время он иногда изображал социально-экономическое и политическое формации хотя и застрял в рамках образований, на самом деле он безграничен. Все это он составляет основной предмет статьи.

Что касается личности в романах Сабира Ахмедли в статье указывается, что его героии это люди, чьи моральные устои хотя они противоречат всем литературным принципам советской эпохи на самом деле они предстают перед нами как полноценные азербайджанские люди. Все герои Сабира Ахмадли Азербайджан со всеми его отрицательными и положительными чертами образует Азербайджанскую среду и общественно-политическая формации и лисности Азербайджана.

**Ключевые слова:** *время, реализм, Карабах, “Загробная любовь”, “Удаволства”, “Жатва жизни”.*

***Summary***

***Sevda Veliyeva***

***Sabir Ahmedli: Master of Digital Illustrations***

The article examines the creative work of People's Writer Sabir Ahmadli. It is shown that this creative activity can be divided into two periods: the Soviet period and the period of independence. The writer, who spent a total of nearly 60 years of his creative career, spent approximately forty years of this creative period in the Soviet era and twenty years in the period of independence. During his Soviet-era work, he was best known for his works "Toghana", "The Throne of the World", "Blood Transfusion Station" and "Mark on the Slope", but during the period of independence, he wrote novels such as "Love of the Hereafter", "Delight", "The Passion of Life", "The Crowd" and others. The article shows that Sabir Ahmadli's main heroes throughout all periods of his creative work were time, environment, space and people and as a writer, he tried to combine these four spaces to reveal the essence of his works and the essence of his artistic words. However, along with all these elements, he mainly tried to reveal the inner, psychological and spiritual state of the Azerbaijan person and tried to use the prevailing social, natural, time and s.

Time truly occupies a central position in Sabir Ahmadli's novels. Under the concept of time, the writer sometimes goes back to the past, sometimes to the future, and sometimes even to the afterlife. That is why, perhaps, time has no boundaries in Sabir Ahmadli's novels. In his work, time, as in reality, is a

concept without limits. It is true that his time, although sometimes stuck within the framework of the socio-economic-political formations he describes, is actually boundless. All this constitutes the main subject of the article.

As for the issue of personality in Sabir Ahmadli's novels, the article shows that, no matter how contradictory his heroes may be internally and morally, they actually appear to us as fully Azerbaijan people, contrary to all the literary principles of the Soviet era. All of Sabir Ahmadli's heroes, with all their negative and positive traits, are personalities shaped by the Azerbaijan environment and the Azerbaijan socio-political formation.

**Key words:** *time, realism, Karabakh, "Love of the Hereafter", "Delight", "The Passion of Life".*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Rzayev Seyfəddin Gülverdi oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.